| Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələr üzrə | 106 | 1,4 % |
| vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 3810 | 49,09 % |
| əmr icraatı | 3 | 0,03 % |
| vergi mübahisələri | 71 | 0,9 % |

| | | |
|---|---|---|
| **Fiziki şəxslərdən vergi və dövlət məcburi sığortası qalığının tələbi** | | |
| **Digər mübahisələr** | 1311 | 17,2 % |

**2022-ci ildə baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsü**

| Dövlət orqanı | İşin sayı | Faizi |
|---|---|---|
| **Dövlət orqanı** | 4407 | 57,7 % |
| | | |
| **Publik hüquqi şəxs** | 16 | 0,2 % |
| **hüquqi şəxsin ləğv edicisi** | 13 | 0,2 % |
| **Təbii inhisar mövqeyi** | 312 | 4,1 % |
| **Xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filialları** | 135 | 1,7 % |
| **Fərdi sahibkar ( hər iki tərəf)** | 74 | 0,9 % |
| **Kommersiya hüquqi şəxslər (hər iki tərəf)** | 1428 | 18,7 % |
| **Qarışıq tərkibdə, yəni tərəfləri fərdi sahibkar, kommersiya hüquqi şəxs olan işlər** | 1172 | 15,4 % |
| **Qeyri-kommersiya hüquqi şəxs** (Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər) | 72 | 0,9 % |

- 2022-ci il il ərzində ümumilikdə 65 işə ***qiyabi icraat*** qaydasında baxılmışdır. 17 iş üzrə qiyabi qətnamə sonradan cavabdeh tərəfindən verilmiş ərizəyə əsasən ləğv edilmişdir.
- 2022-ci il ərzində Bakı Kommersiya Məhkəməsinə ümumilikdə 60 ***məhkəmə tapşırığı*** daxil olmuş, 1 iş aidiyyat üzrə göndərilmiş, 17-si geri qaytarılmışdır. Məhkəmə tapşırıqları Türkiyə Cumhuriyyəti, Rusiya Federasiyası, Almaniya və Ukrayna Respublikasının məhkəmələri tərəfindən göndərilmişdir.

2022-ci il ərzində Bakı Kommersiya Məhkəməsində icraatında olmuş işlərdən verilmiş apellyasiya şikayətlərinə və onların nəticələrinə dair məlumatlar Bakı Apellyasiya Məhkəməsi tərəfindən təqdim edilmədiyindən və həmin məlumatların elektron məhkəmə informasiya sistemindən əldə edilməsi mümkün olmadığından bununla bağlı məlumatın təqdim edilməsi hal-hazırda qeyri-mümkündür. Sözügedən məlumatlar Bakı Kommersiya Məhkəməsinə göndərildikdən sonra sizə təqdim ediləcəkdir.

### 3.2. GƏNCƏ KOMMERSİYA MƏHKƏMƏSİ

2022-ci ildə məhkəmənin icraatında cəmi 2712 iş olmuşdur. Onlardan 211 iş 2021-ci ildən qalıq keçmiş, 2491 iş isə hesabat dövründə daxil olmuşdur.

2021-ci ilə müqayisədə ümumən işlərin sayı 444 iş artmışdır.




2021-ci ilin əvvəlinə qalıq keçmiş işlərin sayı 207, daxil olan işlərin sayı isə 2061 olmuşdur.




2022-ci ilidə icraatda olmuş işlərin 2533-ə baxılmış (o cümlədən 2062 iş qətnamə çıxarılmaqla həll edilmiş, 120 iş üzrə icraata xitam verilmiş, 140 iş üzrə ərizələr baxılmamış

saxlanılmış, 175 iş üzrə ərizələr geri qaytarılmış, 7 iş üzrə iddia ərizəsinin icraata qəbul edilməsindən imtina olunmuşdur) 179 iş 2023-cü ilə qalıq keçmişdir.

Daxil olan iddia ərizələrindən 175 iş üzrə ərizələr geri qaytarılmış, 7 iş üzrə iddia ərizəsinin icraata qəbul edilməsindən imtina olunmuşdur.

Qətnamə çıxarılmaqla həll edilən 2016 işdən 1752 iş (86.9%) üzrə iddia təmin edilmiş, 217 iş (10.7%) üzrə iddia qismən təmin edilmiş, 47 iş (2.3%) üzrə iddia rədd edilmişdir. 120 iş üzrə icraata xitam verilmiş, 175 iş üzrə ərizələr geri qaytarılmış, 7 iş üzrə iddia ərizəsinin icraata qəbul edilməsindən imtina olunmuş, 140 iş üzrə ərizələr baxılmamış saxlanılmış, 9 iş üzrə barışıq sazişi bağlanmışdır.




Hesabat dövründə MPM-in XL-VII fəslinin tələbləri qaydasında işlərə baxılmamışdır.

Hesabat dövründə MPM-in 191.2-1-ci maddəsinin tələbləri qaydasında işlərə baxılmamışdır.

Məhkəmə aidiyyəti qaydasında 17 işə baxılmışdır. Onlardan 1 iş üzrə aidiyyət haqqında ərizə təmin edilərək iş aidiyyəti üzrə göndərilmişdir; 1 iş üzrə aidiyyət haqqında ərizə təmin edilməmişdir; 15 iş məhkəmələr arasında fikir ayrılığı olması əsası ilə kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.

2 iş üzrə aidiyyət haqqında qərardadlardan şikayət verilmişdir. Onlardan hər ikisində şikayət təmin edilməmiş və iş materialı ilə birlikdə baxılması üçün kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.

Hesabat dövründə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 14.3-1-ci maddəsinin tələbinə uyğun olaraq işlərə baxılmamışdır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 152.1.6-1-ci maddəsinə istinad edilməklə iddia ərizələrinin geri qaytarılmasına dair 11 qərardad qəbul edilmişdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 355-23-cü maddəsinin tələbinə uyğun olaraq "mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi"nə dair 5 ərizə daxil olmuşdur.

**2022-ci ərzində Gəncə Kommersiya Məhkəməsində baxılmış işlərin kateqoriyalar üzrə bölgüsü**

| İşlərin kateqoriyası | İş Sayı | Faizi |
|---|---|---|
| Korporativ mübahisələr | 3 | 0.11 % |
| Əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | 21 | 0.77 % |
| Müqavilə münasibətlərindən irəli gələn mübahisələr | 722 | 26.2 % |

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Müqavilə münasibətlərindən irəli gələn mübahisələr Onlardan; | 722 | 26.2 faiz % |
| 1. Alqı-satqı müqaviləsi | 124 | 17,17% |
| 2. Daşınma müqaviləsi | 3 | 0,41% |
| 3. Borc (kredit) müqaviləsi | 234 | 32,4% |
| 4. İcarə müqaviləsi | 23 | 3,18% |
| 5. İpoteka müqaviləsi | 7 | 0,96% |
| 6. Zaminlik müqaviləsi | 1 | 1,3 % |
| 7. Lizinq müqaviləsi | 30 | 4.1% |
| 8.Françayzinq müqaviləsi | 1 | 1,3 % |
| 9.Sığorta müqaviləsi | 1 | 1,3 % |
| 10. Podrat müqaviləsi | 3 | 0,41% |

| | | |
|---|---|---|
| 11. Digər müqavilələr | 290 | 40,16% |
| Müqavilənin etibarsızlığı<br>Onlardan; | 2 | 0,07% |
| Uydurma əqd | 2 | 100% |
| Müqavilənin bağlanması, ləğvi və yaxud dəyişdirilməsi<br>Onlardan; | 7 | 0,25 % |
| müqavilənin qanunda və müqavilədə nəzərdə tutulan digər əsaslarla bağlı ləğvinə dair | 7 | 100 % |
| Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələr | 15 | 0,55% |
| Təbii inhisar subyektləri (Azəriqaz, Azərsu və Azərişıq) ilə təbii qaz, su, elektrik və ya istilik enerjisindən istifadə ilə bağlı yaranan mübahisələr (İstehlak edilmiş təbii qaz, su, elektrik və ya istilik enerjisinin haqqının ödənilməsi üzrə) | 5 | 0,18 % |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 1270 | 46,8% |
| Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | 158 | 5,8% |
| Sair işlər | 260 | 0,09% |

**2022-ci ildə baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsü**

| SUBYEKT TƏRKİBİ | SAY |
|---|---|
| Xarici kommersiya hüquqi şəxslər (nümayəndəlik və filiallar) | 3 |
| Qeyri-kommersiya hüquqi şəxslər (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər) | 0 |
| Dövlət orqanı | 1910 |
| Bələdiyyə | 26 |
| Publik hüquqi şəxs | 8 |

| | |
|---|---|
| Təbii inhisar subyektləri | 44 |

2022-ci ildə baxılmış işlərdən 156 iş üzrə qətnamələrdən apelyasiya şikayətləri, 58 iş üzrə qərardadlardan şikayətlər verilmişdir. Kateqoriyalar üzrə 87 iş borc (kredit) müqaviləsinə, 6 iş icarə müqaviləsinə, 3 iş podrat müqaviləsinə, 19 iş təbii inhisar subyektləri (Azəriqaz, Azərsu və Azərişıq) ilə təbii qaz, su, elektrik və ya istilik enerjisindən istifadə ilə bağlı yaranan mübahisələr, 5 iş Korporativ mübahisələr, 37 iş alğı-satqı müqaviləsi, 3 iş sığorta müqaviləsi, 11 iş vergi mübahisələrinə, 12 iş lizinq müqaviləsi, 3 iş mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələr, 22 iş vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr, 2 iş müqavilənin etibarsızlığı, 4 iş əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələrə aid olmuşdur. həmin şikayətlərdən 3-ü Azərbaycan Respublikası MPM-in 363-cü maddəsinə əsasən geri qaytarılmışdır.

Hesabat dövründə işdə iştirak etməyən şəxslər tərəfindən Azərbaycan Respublikası MPM-in 357.2-ci maddəsinə müvafiq olaraq iş üzrə apellyasiya şikayəti verilməmişdir.

Hesabat dövründə qiyabi icraat qaydasında işə baxılmamışdır.

Hesabat dövründə iş üzrə qiyabi qətnamə sonradan ləğv edilməmişdir.

Hesabat dövründə məhkəmə tapşırığı qaydasında işə baxılmamışdır.

Hesabat dövründə xarici dövlətlərin məhkəmələri tərəfindən məhkəmə tapşırığı qaydasında müraciət daxil olmamışdır.

### 3.3. 2022-ci il ərzində Sumqayıt Kommersiya Məhkəməsinin icraatında olmuş işlər və onların 2021-ci il ilə müqayisəli təhlili

2022-ci il üzrə məhkəmənin icraatında 2368 iş olmuşdur. Onlardan 95 iş 2021-ci ildən qalıq keçmiş, 2273 iş isə 2022-ci ildə daxil olmuşdur. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ümumən icraatda olan iş sayı 366 iş (18,3%) artmışdır.




Ötən ilin müvafiq dövrü ilə müqayisədə ayrıca götürülməklə qalıq keçən işlərin sayı 92 iş (96,8%), daxil olan işlərin sayı isə 458 iş (25,2%) artmışdır.

2022-ci il icraatda olmuş ümumi işlərin 2238 iş (94,5%) baxılıb, 130 iş (5,5%) isə qalıq olaraq növbəti ilə keçmişdir. Daxil olan iddia ərizəsindən 578-i

(24,4%) geri qaytarılmış, 18-i (0,8%) isə iddianın yolverilməzliyinə görə qəbulundan imtina edilmişdir.1428 iş üzrə qətnamə çıxarılmış, onlardan 1265 iş (88,6%) təmin, 120 iş (8,4%) qismən təmin, 43 iş (3%) rədd edilmiş; 72 (3,2%) iş üzrə icraata xitam verilmişdir; 126 iş (5,6%) ərizə baxılmamış saxlanılmışdır, 16 (0,7%) iş aidiyyəti üzrə başqa məhkəməyə göndərilmişdir.






MPM-in XL-VII fəslinin tələbləri qaydasında 8 işə baxılmış, onlardan 1 iş təmin, 1 iş qismən təmin edilmiş, 6 iş geri qaytarılmışdır.

Məhkəmə aidiyyəti qaydasında 11 işə baxılmış, onlardan 1 iş məhkəmə aidiyyəti üzrə göndərilmiş, 10 iş məhkəmələr arasında fikir ayrılığı olması əsası ilə kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 14.3-1-ci maddəsinin tələbinə uyğun olaraq 1 iş mübahisənin həlli məqsədilə mediasiyaya göndərilmişdir və mübahisə həllini tapmamışdır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 152.1.6-1-ci maddəsinə istinad edilməklə iddia ərizələrinin geri qaytarılmasına dair 20 qərardad qəbul edilmişdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 355-23-cü maddəsinin tələbinə uyğun olaraq 7 işə baxılmış, onlardan 1 iş təmin, 1 iş qismən təmin edilmiş, 5 iş geri qaytarılmışdır.

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| 1. Alqı-satqı müqaviləsi | 194 | |
| 2. Daşınma müqaviləsi | 9 | |
| 3. Borc (kredit) müqaviləsi | 134 | |
| 4. İcarə müqaviləsi | 123 | |
| 5. İpoteka müqaviləsi | 23 | |
| 6. Zaminlik müqaviləsi | 1 | |
| 7. Lizinq müqaviləsi | 50 | |

| | | |
|---|---|---|
| 8.Françayzinq müqaviləsi | 0 | |
| 9.Sığorta müqaviləsi | 1 | |
| 10. Podrat müqaviləsi | 12 | |
| 11. Qiymətli kağızlarla bağlı mübahisələr | 1 | |
| 12. Digər müqavilələr | 18 | |
| 13. Müqavilənin etibarsızlığı<br>Onlardan; | 2 | |
| 14. Müqavilənin bağlanması, ləğvi və yaxud dəyişdirilməsi | 14 | |
| 15. Təbii inhisar subyektləri (Azəriqaz, Azərsu və Azərişıq) ilə təbii qaz, su, elektrik və ya istilik enerjisindən istifadə ilə bağlı yaranan mübahisələr (İstehlak edilmiş təbii qaz, su, elektrik və ya istilik enerjisinin haqqının ödənilməsi üzrə) | 61 | |
| 16. Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 1274 | |
| 17. Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | 254 | |
| 18. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası | 1 | |
| 19. Müflisləşmə ilə bağlı mübahisələr | 2 | |
| 20. Sair işlər | 76 | |

**2022-ci ildə baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsü**

| SUBYEKT TƏRKİBİ | SAY |
|---|---|
| Xarici kommersiya hüquqi şəxslər (nümayəndəlik və filiallar) | 14 |
| Qeyri-kommersiya hüquqi şəxslər (sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər) | 0 |
| Dövlət orqanı | 1654 |
| Bələdiyyə | 7 |

| | |
|---|---|
| Publik hüquqi şəxs | 5 |
| Təbii inhisar subyektləri | 79 |




Baxılmış işlərdən ümumən 22 apellyasiya şikayətləri verilmişdir. Qiyabi icraat qaydasında 1 işə baxılmışdır. Məhkəmə tapşırığı qaydasında 11 işə baxılmışdır. Baxılan işlərin məzmunu sənədlərin təqdim edilməsi ilə bağlı olmuşdur. Xarici dövlətlərin məhkəmələri tərəfindən məhkəmə tapşırığı qaydasında 11 müraciət daxil olmuşdur (Türkiyə Respublikası – 2 müraciət, Rusiya Federasiyası – 7 müraciət, Litva Respublikası – 2 müraciət).

### 3.4. 2022-ci il ərzində Şirvan Kommersiya Məhkəməsinin icraatında olmuş işlər və onların 2021-ci il ilə müqayisəli təhlili

2022-ci il üzrə Şirvan Kommersiya Məhkəməsinin icraatında cəmi 3243 sayda iş olmuşdur.Onlardan 225 iş (6.94%) 2021-ci ildən qalıq keçmiş, 3018 iş (93.06%) isə 2022-ci ərzində daxil olmuşdur. 2021-ci il ilə müqayisədə Şirvan Kommersiya Məhkəməsinin icraatında olan iş sayı artmış ( 2021-ci üzrə 3134 sayda, 2022-ci il üzrə 3243 sayda iş) 2022-ci il üzrə müqayisədə iş sayında 12.99% artım olmuşdur. 2021-ci il üzrə Şirvan Kommersiya Məhkəməsinin icraatında qalıq keçən işlərin sayı 216, daxil olan işlərin sayı isə 2918 olmuşdur. 2022-ci ildə isə bu rəqəmlər qalıq keçən işlərə münasibətdə 225, daxil olan işlərdə isə 3018 olmuşdur. 2022-ci ildə ötən ilin müvafiq dövrü ilə müqayisədə həm qalıq keçən işlərin sayı (216→225), həm də daxil olan işlərin sayı (2918→3018) artmışdır. Qalıq işlərə nisbətdə 4.17 %, daxil olan işlərə nisbətdə isə 3.43 % artım olmuşdur.




2022-ci il üzrə icraatda olmuş 3243 işdən 2991-nə mahiyyəti üzrə baxılmış (92.23 %), 252 iş (7.77%) qalıq olaraq növbəti ilə keçmişdir. Daxil olan iddia ərizələrindən 304-ü (10.16 %) geri qaytarılmışdır. Daxil olan ərizələrdən isə xüsusi icraat qaydasında 42-i (1.4%), əmr icraatı qaydasında 1-i (0.03%) geri qaytarılmışdır. Ümumilikdə baxılan işlər üzrə geri qaytarılan işlərin sayı 347 (11.60%) olmuşdur. Daxil olan iddia ərizələrinin 27-nin (9%), daxil olan ərizələrin isə xüsusi icraat qaydasında 7-nin (0.23%) iddianın yolverilməzliyinə görə qəbulundan imtina edilmişdir.

.



2022-ci il üzrə baxılmış 2991 işdən 2428 iş üzrə (81.18%) qətnamə çıxarılmış, onlardan 2102-i (86.56%) təmin, 269-u (11.1%) qismən təmin və 57-i (2.34%) rədd edilmişdir. 89 iş (3%) üzrə iddia ərizəsi baxılmamış saxlanılmış, 9 iş aidiyyəti üzrə başqa məhkəməyə göndərilmiş, 74 iş (2.47%) üzrə icraata xitam verilmişdir (onlardan 1-i barışıq sazişi bağlanılması ilə yekunlaşmışdır). MPM-in XL-VII fəslinin(mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin təsdiq edilməsi) tələbləri qaydasında 4 işə (0.13%) baxılmış və geri qaytarılmışdır.

MPM-in 191.2-1-ci maddəsinin tələbləri qaydasında (Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə, barışıq sazişi, həll edilmədikdə isə mediasiya prosesinin nəticələri barədə protokol məhkəməyə təqdim olunur. Tərəflərin barışıq sazişini təsdiq etdikdə məhkəmə bu barədə qərardad çıxararaq, bu qərardadla eyni zamanda iş üzrə icraata xitam verir. Məhkəmə tərəfindən təsdiq edilən barışıq sazişinin şərtləri qərardadda göstərilməlidir.) heç bir işə baxılmamışdır.






Məhkəmə aidiyyəti ilə bağlı cəmi 10 (0.37%) işə baxılmışdır. Baxılmış işlərdən 4-ü (36.36%) məhkəmənin öz təşəbbüsü ilə aidiyyəti məhkəməyə göndərilmiş; 3 (27.27%) üzrə məhkəmələr arasında fikir ayrılığı olması əsası ilə kassasiya instansiyası məhkəməsinə göndərilmiş, 1 iş (9.1%) üzrə aidiyyət haqqında *(aidiyyətin dəyişdirilməsi haqqında)* verilmiş ərizə təmin edilmişdir, 2 iş (12.5%) üzrə aidiyyət haqqında *(aidiyyətin dəyişdirilməsi haqqında)* verilmiş ərizə təmin edilməmişdir. Aidiyyət haqqında qərardaddan şikayət verilməmişdir.

Azərbaycan Respublikası MPM-nin 14.3-1-ci maddəsinə əsasən heç bir iş mübahisənin həlli məqsədi ilə mediasiyaya göndərilməmişdir.

Azərbaycan Respublikası MPM-nin 152.1.6-1-ci maddəsinə istinad edilməklə 44 sayda iş üzrə (1.47%) iddia ərizəsinin geri qaytarılması haqqında qərardad qəbul edilmişdir.

Azərbaycan Respublikası MPM-in 355-23-cü maddəsinin (*mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin təsdiq edilməsi)* tələbləri qaydasında 4 işə (0.13%) baxılmış və geri qaytarılmışdır.



## 2022-Cİ İLDƏ DAXİL OLMUŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ

| İDDİALARIN KATEQORİYALARI | İŞ SAYI | FAİZİ |
|---|---|---|
| Korporativ mübahisələr üzrə | 2 | 0,06% |
| Əmlakdan istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr üzrə | 6 | 0.2% |
| Torpaq münasibətlərindən irəli gələn mübahisələr üzrə | 15 | 0,5% |
| Alqı-satqı müqaviləsi üzrə | 195 | 6.52% |
| İcarə müqaviləsi üzrə baxılmış işlərin sayı 27 (0.9% | 27 | 0,9% |
| Borc (kredit) müqaviləsi üzrə baxılmış işlərin sayı | 196 | 6.55 |
| İpoteka müqaviləsi | 4 | 0,13% |
| Sığorta müqaviləsi | 4 | 0,13% |
| Lizinq müqaviləsi | 91 | 3.04% |
| Podrat müqaviləsi | 8 | 2.7% |
| Tapşırıq müqaviləsi | 2 | 0,06% |
| Digər müqavilələr | 484 | 16.2% |
| Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr üzrə | 1608 | 53.76% |
| Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması ilə bağlı mübahisələr üzrə | 202 | 6.75% |
| Müqavilənin ləğvi | 2 | 0,06% |
| Müqavilənin etibarsızlığından irəli gələn mübahisələr üzrə | 2 | 0,06% |
| Mülki hüquq pozultularından (deliktlərdən) irəli gələn mübahisələr üzrə | 11 | 0.37% |
| Təbii inhisar subyektləri (Azəriqaz, Azərsu və Azərişıq) ilə təbii qaz, su, elektrik və ya istilik enerjisindən istifadə ilə bağlı mübahisələr üzrə | 13 | 0.43% |

**Baxılmış işlərin subyekt tərkibi üzrə bölgüsü:**

- Xarici kommersiya hüquqi şəxslər (nümayəndəlik və filiallar) üzrə - 0 iş;
- Dövlət orqanı üzrə - 1854 iş
- Bələdiyyələr üzrə - 42 iş;
- Publik hüquqi şəxslər üzrə -40 iş;
- Təbii inhisar subyekləri üzrə 13 iş. (Azəriqaz - 8, Azərışıq - 5)
- Qeyri-kommersiya hüquqi şəxslər üzrə hər hansı işə baxılmamışdır.



Baxılmış işlərdən ümumən 78 apellyasiya şikayəti (2.6%) verilib. Qətnamələrdən verilən şikayətlərin sayı 64 (82.05%), qərardadlardan verilən şikayətlərin sayı 14 (17.95 %) olmuşdur. Apellyasiya şikayətlərindən 42-i (53.9%) AR MPM-in 363-cü maddəsinə əsasən geri qaytarılmışdır.Qərardadlardan verilən şikayətlərdən 6-ı (7.7%) geri qaytarılmışdır.

* Müvəqqəti təminat tədbirləri (MTT və ya 16 indeksi ilə) barədə qərardadlara aid 2 iş üzrə şikayət verilmişdir.

* Məhkəmə qərarlarının icrası barədə (8-2 indeksi) qərardadlara aid 2 iş üzrə şikayət verilmişdir.

İşdə iştirak etməyən şəxslər tərəfindən Azərbaycan Respublikası MPM-in 357.2-ci maddəsinə müvafiq olaraq heç bir apellyasiya şikayəti verilməmişdir.




Qiyabi icraat qaydasında 1(bir) işə baxılmışdır.Həmin iş üzrə qiyabi qətnamə sonradan ləğv edilmişdir.Məhkəmə tapşırığı qaydasında heç bir işə baxılmamışdır.Xarici dövlətlərin məhkəmələri tərəfindən məhkəmə tapşırığı qaydasında 3 (üç) müraciət daxil olmuşdur (Rusiya Federasiyası).

### 3.5. 2022-ci il ərzində Şəki Kommersiya Məhkəməsinin icraatında olmuş işlər və onların 2021-ci il ilə müqayisəli təhlili

2022-ci il üzrə Şəki Kommersiya Məhkəməsinin icraatında olan 1877 işdən 51 iş (2.72%) 2021-ci ildən qalıq keçmiş, 1826 iş (97.28%) isə 2022-ci ildə daxil olmuşdur. 2021-ci ilin müvafiq hesabat dövründə isə icraatda 1377 işdən 60 iş (4.36%) 2020-ci ildən qalıq keçmiş, 1317 iş (95.64%) isə 2021-ci ildə daxil olmuşdur.







2022-ci ildə məhkəmənin icraatında olan 1877 iş 2021-ci ildə icraatda olan 1377 iş ilə müqayisə edildikdə görünür ki, 2022-ci ildə icraatda olan 500 iş (36.31%) artmışdır.

2022-ci ildə daxil olan 1826 işi 2021-ci ilin müvafiq dövründə daxil olan 1371 işlə müqayisə etdikdə görünür ki, 2022-ci ilin hesabat dövründə daxil olan işlərin sayında 455 işin (33.19%) artması müşahidə olunur. 2021-ci ilə qalıq keçmiş 60 iş və 2022-ci illərə qalıq keçmiş 51 işi müqayisə etdikdə görünür ki, 2022-ci ilə qalıq keçən işlər 9 iş (15%) azalmışdır.




2022-ci ildə icraatda olmuş 1877 işdən 1811 işə baxılmış, 66 iş isə qalıq olaraq növbəti hesabat dövrünə keçmişdir.




Daxil olan iddia ərizələrindən 213 iddia ərizəsi geri qaytarılmış və 4 iddia ərizəsinin iddianın yolverilməzliyinə görə qəbulundan imtina edilmişdir.

Baxılmış işlərdən 1467 (81%) işlə bağlı mahiyyəti üzrə qətnamə çıxarılmışdır, onlardan 1256 (85.62%) iş üzrə iddia təmin edilmiş, 173 (11.79%) iş üzrə iddia qismən təmin edilmiş, və 38 (2.59%) iş üzrə iddia rədd edilmişdir.







Baxılmış işlərdən 75 (4.14%) iş üzrə icraata xitam verilmişdir, 0 (0%) iddia baxılmamış saxlanmışdır, 4 (0.22%) iş üzrə barışıq sazişi bağlanılmışdır.

MPM-in 40-7-ci fəslinin tələbləri qaydasında qaydasında 0 işə baxılmışdır.

MPM-in 191.2-1-ci maddəsinin tələbləri qaydasında qaydasında 0 işə baxılmışdır.

Məhkəmə aidiyyəti məsələsinə baxılan 18 işdən 1 iş üzrə aidiyyət haqqında ərizə təmin edilərək iş aidiyyəti üzrə göndərilmişdir, 1 iş üzrə aidiyyət haqqında ərizə təmin edilməmişdir, 16 iş məhkəmələr arasında fikir ayrılığı olması əsası ilə kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.




2021-ci ildə məhkəmə tərəfindən qəbul edilmiş aidiyyət haqqında qərardadlar barəsində 1 şikayət verilmişdir və şikayət təmin edilməmişdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 14.3-1-ci maddəsinin tələbinə uyğun olaraq 0 iş mübahisənin həlli məqsədilə mediasiyaya göndərilmişdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 152.1.6-1-ci maddəsinə istinad edilməklə iddia ərizələrinin geri qaytarılmasına dair 70 qərardad qəbul edilmişdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 355-23-cü maddəsinin tələbinə uyğun olaraq “mediasiya prosesi nəticəsində bağlanmış barışıq sazişinin təsdiq edilməsi”nə dair 5 ərizə daxil olmuşdur, 1 ərizə təmin edilmişdir, 3 ərizə geri qaytarılmışdır, 1 ərizə hesabat dövrünün sonuna qalıq qalmışdır.

**Baxılmış işlərin kateqoriyalar üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:**

| BAXILMIŞ IŞLƏRIN KATEQORIYALAR ÜZRƏ BÖLGÜSÜ | İŞİN SAYI | FAİZ |
|---|---|---|
| □ Korporativ mübahisələr | 34 | 1.88% |
| □ Əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | 27 | 1.49% |
| □ Müqavilə münasibətlərindən irəli gələn mübahisələr; | 409 | 22.58% |
| **a) Aşağıdakı növləri üzrə ayrılıqda göstərilməklə** | | |
| □ Alqı-satqı müqaviləsi | 98 | 5.41% |
| □ Daşınma müqaviləsi | 0 | 0.00% |
| □ Dəyişmə müqaviləsi | 0 | 0.00% |
| □ Kirayə müqaviləsi | 1 | 0.06% |
| □ İcarə müqaviləsi | 20 | 1.10% |
| □ Borc (kredit) müqaviləsi | 156 | 8.61% |
| □ İpoteka | 13 | 0.72% |

| | | |
|---|---|---|
| □ Zaminlik | 1 | 0.06% |
| □ Qarantiya | 0 | 0.00% |
| □ Saxlama | 0 | 0.00% |
| □ Beh | 0 | 0.00% |
| □ Lizinq müqaviləsi | 49 | 2.71% |
| □ Podrat müqaviləsi | 12 | 0.66% |
| □ Tapşırıq müqaviləsi | 0 | 0.00% |
| □ Brokerlik müqaviləsi | 1 | 0.06% |
| □ Ticarət nümayəndəliyi müqaviləsi | 0 | 0.00% |
| □ Kommersiya konsessiyası müqaviləsi | 0 | 0.00% |
| □ Komissiya müqaviləsi | 0 | 0.00% |
| □ Saxlama müqaviləsi | 0 | 0.00% |
| □ Sığorta müqaviləsi | 1 | 0.06% |
| □ Bank əmanəti müqaviləsi | 0 | 0.00% |
| □ Bank hesabı müqaviləsi | 0 | 0.00% |
| □ Birgə əməkdaşlıq müqaviləsi | 0 | 0.00% |
| □ Barışıq razılaşması haqqında müqavilə | 1 | 0.06% |
| □ Mövcud borcun etirafı haqqında mücərrəd müqavilə | 0 | 0.00% |
| □ Digər müqavilələr | 56 | 3.09% |
| **b) Müqavilənin etibarsızlığı** | 0 | 0.00% |
| □ Hakimiyyətdən sui-istifadə nəticəsində; | 0 | 0.00% |
| □ Aldatma; | 0 | 0.00% |
| □ Zorakılıq və hədə təsiri altında; | 0 | 0.00% |
| □ Bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi və ya şəxsin ağır vəziyyətə düşməsi; | 0 | 0.00% |
| □ Vacib əhəmiyyətli yanılma nəticəsində; | 0 | 0.00% |
| □ Uydurma əqd; | 0 | 0.00% |
| □ Yalan əqd; | 0 | 0.00% |
| □ Səlahiyyətsiz şəxsin bağladığı əqd; | 0 | 0.00% |
| □ Hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxan əqd. | 0 | 0.00% |
| **c) Müqavilənin bağlanması, ləğvi və yaxud dəyişdirilməsi** | 15 | 0.83% |
| □ müqavilənin bağlanması ilə bağlı mübahisələr (oferta, aksept) | 1 | 0.06% |
| □ müqavilənin şərtlərin əhəmiyyətli dərəcədə pozulması ilə bağlı ləğvinə dair | 0 | 0.00% |
| □ müqavilənin icrasından birtərəfli imtina ilə bağlı ləğvinə dair | 0 | 0.00% |
| □ müqavilənin şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə bağlı ləğvinə dair | 0 | 0.00% |
| □ müqavilənin qanunda və müqavilədə nəzərdə tutulan digər əsaslarla bağlı ləğvinə dair | 14 | 0.77% |
| **ç) Müqavilə öhdəliklərindən irəli gələn mübahisələr** | 417 | 23.03% |
| □ Öhdəliklərin xitamı ilə bağlı | 0 | 0.00% |
| □ Öhdəliklərin icra edilməməsi ilə bağlı | 397 | 21.92% |
| □ Öhdəliklərin icra edilməməsinə görə məsuliyyətlə (zərər) bağlı | 0 | 0.00% |
| □ Öhdəliklərin icrasının təminatı ilə bağlı | 0 | 0.00% |

| | | |
|---|---|---|
| □ Qanundan əmələ gələn öhdəliklər üzrə mübahisələr (özgə işlərini tapşırıqsız aparma; əsassız varlanma) | 0 | 0.00% |
| □ Mülki hüquq pozuntularından (deliktlərdən) irəli gələn mübahisələr | 12 | 0.66% |
| □ Qiymətli kağızlarla bağlı mübahisələr | 0 | 0.00% |
| □ Sənaye mülkiyyəti obyektlərindən (əmtəə nişanı, coğrafi göstərici, ixtira, faydalı model və sənaye nümunəsi) istifadə və onların hüquqi mühafizəsi ilə bağlı mübahisələr | 0 | 0.00% |
| □ Təbii inhisar subyektləri (Azəriqaz, Azərsu və Azərişıq) ilə təbii qaz, su, elektrik və ya istilik enerjisindən istifadə ilə bağlı yaranan mübahisələr | 8 | 0.44% |
| □ Oyunların və mərclərin keçirilməsi ilə bağlı mübahisələr | 0 | 0.00% |
| □ Müflisləşmə ilə bağlı mübahisələr | 0 | 0.00% |
| □ Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 941 | 51.96% |
| □ Bankın öhdəliklərinin könüllü restrukturizasiyası | 0 | 0.00% |
| □ İtirilmiş sənədlər üzrə onları təqdim edən şəxsin hüquqlarının bərpa edilməsi (çağırış icraatı) | 0 | 0.00% |
| □ Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | 163 | 9.00% |
| □ **Digər mübahisələr** | 229 | 12.64% |
| **Cəmi** | 1811 | |

Baxılmış işlərin ümumən 129-dan (qətnamələr üzrə 77 və qərardadlar üzrə 27) apellyasiya şikayətləri verilmiş və 25 şikayət (qətnamələr üzrə 6 və qərardadlar üzrə 19) Azərbaycan Respublikası MPM-in 363-cü maddəsinə əsasən geri qaytarılmışdır.

| QƏTNAMƏLƏR ÜZRƏ APELYASİYA ŞİKAYƏTLƏRİ VERİLMİŞ İŞLƏRİN KATEQORIYALAR ÜZRƏ BÖLGÜSÜ | ŞİKAYƏT VERİLMİŞDİR | GERİ QAYTARILMIŞDIR | FAİZ |
|---|---|---|---|
| □ Korporativ mübahisələr | 2 | 1 | 50.00% |
| □ Əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | 62 | 5 | 8.06% |
| □ Müqavilə münasibətlərindən irəli gələn mübahisələr; | 2 | 0 | 0.00% |
| □ Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | 3 | 0 | 0% |
| □ Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 8 | 0 | 0.00% |
| □ Digər mübahisələr | 0 | 0 | 0.00% |
| Cəmi | 77 | 6 | 7.79% |

| QƏRARDADLAR ÜZRƏ APELYASİYA ŞİKAYƏTLƏRİ VERİLMİŞ İŞLƏRİN KATEQORIYALAR ÜZRƏ BÖLGÜSÜ | ŞİKAYƏT VERİLMİŞDİR | GERİ QAYTARILMIŞDIR | FAİZ |
|---|---|---|---|
| □ Korporativ mübahisələr | 0 | 0 | 0.00% |
| □ Əşya hüquqi münasibətlərdən, o cümlədən torpaq münasibətlərindən, əmlaka istifadə, sahiblik, mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | 20 | 12 | 60.00% |
| □ Müqavilə münasibətlərindən irəli gələn mübahisələr; | 4 | 4 | 100.00% |
| □ Vergi ödəyicisinin dövlət büdcəsinə olan borcunun ödənilməsinin təmin edilməsi üçün siyahıya alınmış əmlakın açıq hərracdan satılması | 3 | 3 | 100.00% |
| □ Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı mübahisələr | 0 | 0 | 0.00% |
| □ Digər mübahisələr | 0 | 0 | 0.00% |
| Cəmi | 27 | 19 | 70.37% |

İşdə iştirak etməyən şəxslər tərəfindən Azərbaycan Respublikası MPM-in 357.2-ci maddəsinə müvafiq olaraq apellyasiya şikayəti verilməmişdir.

Qiyabi icraat qaydasında 0 işə baxılmışdır. 0 iş üzrə qiyabi qətnamə sonradan ləğv edilmişdir.

Məhkəmə tapşırığı qaydasında 0 işə baxılmışdır.

Xarici dövlətlərin məhkəmələri tərəfindən məhkəmə tapşırığı qaydasında müraciət daxil olmamışdır.

### 3.6. 2022-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin icraatında olmuş işlər və onların 2021-ci il ilə müqayisəli təhlili

2022-ci il üzrə Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin icraatında cəmi 152 iş olmuşdur. Onlardan 3 iş 2021-ci ildən qalıq keçmiş, 149 iş isə 2022-ci il ərzində daxil olmuşdur.

2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ümumən icraatda olan iş sayında 50%-lik artma olmuşdur. Belə ki, 2021-ci il ərzində Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatında kommersiya mübahisələrə dair iş sayı ümumilikdə 74 olmuş, onlardan 6 kommersiya mübahisələrə dair iş 2020-ci ildən qalıq keçmişdir. 2022-ci il ərzində Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatında olan iş sayı 78 iş artmışdır.




2022-ci il ərzində icraatda olmuş ümumi işlərdən 143 kommersiya mübahisəsinə dair işə mahiyyəti üzrə baxılmış, 9 kommersiya mübahisəsinə dair iş isə qalıq olaraq növbəti ilə keçmişdir. Daxil olan iddia ərizələrindən 89-u geri qaytarılmış və 2-si iddianın yolverilməzliyinə görə qəbulundan imtina edilmişdir.

Beləliklə, ötən illə müqayisədə ayrıca götürülməklə qalıq keçən işlərin sayında azalma və daxil olan işlərin sayında artma baş vermişdir. Belə ki, 2021-ci il üçün Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına 6 kommersiya mübahisəyə dair iş 2020-ci ildən qalıq keçmiş, 2022-ci il üçün Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına 3 kommersiya mübahisəsinə dair iş isə 2021-ci ildən qalıq keçmiş, 2022-ci il üçün qalıq keçən iş sayında 3 iş azalmışdır.

2021-ci il ərzində Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına 68 kommersiya mübahisəsinə dair iş, 2022-ci il ərzində isə 149 kommersiya

mübahisəsinə dair iş daxil olmuşdur. Məhkəmənin icraatına daxil olan iş sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 81 iş artmışdır.



2022-ci il ərzində baxılmış işlər üzrə yekunlaşma aşağıdakı kimi olmuşdur: 143 işə baxılaraq 31 işlə bağlı mahiyyəti üzrə qətnamə çıxarılmışdır; 29 iş üzrə iddia təmin edilmiş, 2 iş üzrə iddia qismən təmin edilmiş, 11 iş üzrə icraata xitam verilmişdir, 6 iş üzrə iddia baxılmamış saxlanmışdır.




2022-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsində Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin XL-VII fəslinin tələbləri qaydasında 1 işə baxılmış və iş geri qaytarılmışdır.

2022-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsində Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 191.2-1-ci maddəsinin tələbləri qaydasında işlərə baxılmamışdır.

Məhkəmə aidiyyəti qaydasında 3 işə baxılmışdır: onlardan 3 iş məhkəmələr arasında fikir ayrılığı olması əsası ilə kassasiya instansiya məhkəməsinə göndərilmişdir.

2022-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsində aidiyyət haqqında qərardadlar barəsində şikayət verilməmişdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 14.3-1-ci maddəsinin tələbinə uyğun olaraq mübahisənin həlli məqsədilə mediasiyaya göndərilən iş olmamışdır.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 152.1.6-1-ci maddəsinə

istinad edilməklə iddia ərizələrinin geri qaytarılmasına dair 8 qərardad qəbul edilmişdir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 355-23-cü maddəsinin tələbinə uyğun olaraq "mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi"nə dair 1 ərizə daxil olmuşdur və həmin iş geri qaytrarılmışdır.

**2022-Cİ İL ƏRZİNDƏ DAXİL OLMUŞ İŞLƏRİN KATEQORİYALAR ÜZRƏ BÖLGÜSÜ**

| İDDİALARIN KATEQORİYALARI FAİZİ | İŞ SAYI | |
|---|---|---|
| Mülkiyyət hüququnun müdafiəsindən irəli gələn mübahisələr | **3** | **2 %** |
| Müqavİlənin etibarsızlığı üzrə | **1** | **0,6 %** |
| Alqı-satqı müqaviləsi | **12** | **8 %** |
| Sığorta müqaviləsi | **1** | **0,6 %** |
| Kredit müqaviləsi | **42** | **28 %** |
| Lizinq müqaviləsi | **1** | **0,6 %** |
| İcarə müqaviləsi | 3 | 2 % |
| Borc müqaviləsi | **1** | **0,6 %** |
| Tapşırıq müqaviləsi | **1** | **0,6 %** |
| Digər müqavilələr | **6** | **4 %** |

2022-ci il ərzində baxılmış işlərdən ümumilikdə 11 kommersiya mübahisəsinə dair iş üzrə (3 iş üzrə çıxarılmış qətnamədən; 8 iş üzrə qərardaddan; borc müqaviləsi üzrə - 2 iş, alqı-satqı müqaviləsi üzrə - 2 iş, kredit müqaviləsi üzrə - 2 iş, mülkiyyət hüququ ilə əlaqədar mübahisələr üzrə - 2 iş, digər müqavilələr üzrə - 1 iş, vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında işlər üzrə icraat - 2 iş) apelyasiya şikayəti verilmişdir və mülkiyyət hüququ ilə əlaqədar mübahisələr üzrə - 1 iş üzrə verilmiş şikayət Azərbaycan Respublikası MPM-in 363-cü maddəsinə əsasən geri qaytarılmışdır.

İşdə iştirak etməyən şəxslər tərəfindən Azərbaycan Respublikası MPM-in 357.2-ci maddəsinə müvafiq olaraq kommersiya mübahisəsinə dair 1 iş üzrə apellyasiya şikayəti verilmiş və şikayət geri qaytarılmışdır.

2022-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsində qiyabi icraat qaydasında və Məhkəmə tapşırığı qaydasında işlərə baxılmamışdır.

2022-ci il ərzində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinə xarici dövlətlərin məhkəmələri tərəfindən məhkəmə tapşırığı qaydasında heç bir müraciət daxil olmamışdır.